Azərbaycan.- 2021.- 2 oktyabr. S. 2.

# Bakı Konqres Mərkəzində "Nəsillərin görüşü" adlı konfrans keçirilib

## Konfransın sonunda Prezident İlham Əliyevə müraciət ünvanlanıb

Oktyabrın 1-də Bakı Konqres Mərkəzində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən "Nəsillərin görüşü" adlı konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbəyə həsr edilən konfransda çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova tədbir iştirakçılarını salamlayıb, Azərbaycan xalqının tarixi Zəfəri münasibətilə bir araya gəlməkdən məmnunluğunu bildirib. F.Səttarova Azərbaycan xalqının, ordumuzun qəhrəman əsgər və zabitlərinin Vətən müharibəsində əsl qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərdiklərini vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həyatını qurban verən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Quliyev çıxış edərək tədbirin yaşlı və gənc nəsillərin görüşü baxımından əhəmiyyətindən danışıb. Bildirib ki, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər xalqımızın, sadəcə, bu günü deyil, həm də gələcəyi baxımından müstəsna rol oynayıb. O, xalqımızı bu Zəfərə qovuşduran Prezident, Müzəffər Ali Baş Komandana, şanlı Ordumuza, şəhidlərimizə və qazilərimizə minnətdarlığını ifadə edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində qazanılan bu mühüm Qələbə daim tarixdə qalacaq. Bu Qələbə xalqımızın, Prezidentimizin və dövlətimizin sivil dünya qarşısında böyük xidmətidir.

Ölkəmizdə 100-ə yaxın veteranlar təşkilatının fəaliyyət göstərdiyini qeyd edən V.Quliyev veteranlarla, şəhid ailələri ilə əlaqədar təşkilatlarda fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edilib ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi, Birinci Qarabağ, Aprel döyüşləri və Vətən müharibəsi veteranlarının gənc və yaşlı nəsil ilə görüşünün keçirilməsi mühüm əhəmiyyət kəsb edir. O, Azərbaycanın veteran təşkilatlarının beynəlxalq əməkdaşlığı gücləndirməsinin önəmini vurğulayıb.

Konfransda gənclər və idman nazirinin müavini İntiqam Babayev Vətən müharibəsində qazanılan Qələbənin önəminə diqqət çəkib. Nazir müavini bu Zəfərin qazanılmasında ölkə gəncliyinin yaxından iştirak etdiyini, dövlətimizin ərazi bütövlüyünün bərpası uğrunda böyük əzmkarlıq, vətənpərvərlik və qəhrəmanlıq nümunələri göstərdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik Elşad Əbilov veteranlar və dövlət qurumlarının nümayəndələri də Vətən müharibəsindəki tarixi Qələbənin Azərbaycan dövləti və xalqının tarixində mühüm yer tutduğunu, dövlətimizin gücünə güc qatdığını, onun inkişafı üçün daha geniş perspektivlər açdığını qeyd ediblər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov konfransda çıxış edərək Vətən müharibəsindəki tarixi Zəfərin təkcə Azərbaycanın deyil, bütün regionun həyatında yeni səhifə açdığına diqqəti cəlb edib.

Tədbirin sonunda konfrans iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

Konfransın yekununda vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.